# MƏMMƏDOV NİZAMİ MURAD OĞLU



Məmmədov Nizami Murad oğlu 12 yanvar 1958-ci ildə Xankəndi şəhərində dünyaya göz açmışdır. Nizami Gəncəvi adına 4 saylı şəhər orta məktəbini bitirdikdən sonra 1975-77-ci illərdə İrkutsk vilayətində hərbi xidmətdə olmuşdur. Xankəndi Yaşıllaşdırma İdarəsində, daha sonra isə Qarabağ İpək Kombinatında çalışmışdır. Daha sonra milis olmaq arzusu onu Bakı Xüsusi Orta Milis Məktəbinə gətirdi. Təhsilini başa vurub Xankəndi şəhər Polis Şöbəsində növbətçi köməkçisi işləməyə başladı. 1988-ci il fevral ayının 18-də şəhərin azərbaycanlılar yaşayan küçələrinə basqın edildi. Nizami bu məhəllədən o məhəlləyə keçir, camaata köməklik göstərməyə çalışırdı. 1989-cu ildə hadisələr getdikcə daha da kəskinləşirdi. O, erməni təzyiqlərinə dözə bilməyərək Şuşa şəhərinə köçməyə məcbur olur və öz işini Şuşa Rayon Polis Şöbəsində davam etdirir. İşdən sonra Kərkicahan, Qaybalı kəndlərinə gedir, özünümüdafiə dəstələrinə vaxtında silah-sursat çatdırılmasına kömək göstərirdi. Şuşanın, demək olar ki, başqa bölgələrlə əlaqəsi kəsilmişdi. Hər qarış torpaq uğrunda mübarizə gedirdi. O, Malıbəyli, Daşaltı, Qaladərəsi əməliyyatlarında rəşadətlə vuruşaraq torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə böyük ad-san qazanmışdı. 1992-ci il mart ayının 29-da polis şöbəsinə atılan mərmilərdən biri Nizami Məmmədova tuş gəlmiş, qəhrəmancasına həlak olmuşdu. Bərdə rayonunun Dəymədağlı kəndində dəfn edilmişdir. Evli idi. Üç oğlu yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Məmmədov Nizami Murad oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.